# HÜMMƏT ƏLİZADƏ

# TÜLKÜ İLƏ TISBAĞANIN ORTAQLIĞI





**UŞAQGƏNCNƏŞR-1960**



Gün yayılmışdı dağa...
Anaşca bir tısbağa
Gedirdi dağ yuxarı,
Dərd almışdı yasarı.
Yarım barmaq ayağı,
İri, yastı çanağı
Kəsmə-kəsmə qara, çal,
Üstü bəzəkli xal-xal...
Tısbağa çox qəmliydi,
Kirpikləri nəmliydi.
Yerə dikib başını,
Tökürdü göz yaşını.

Bir yanda tülkü lələ,—
Quyruğu var bir şələ.
Tülkü, tülkü nə tülkü,—
Biz-biz dayanmış tükü,
Girdəbaş, uzunsifət,
Yanaqlarında yox ət.
Ağzında balta dişi,

Ondan aşır hər işi.
O, tısbağanı gördü,
Qalxıb birbaş yüyürdü;
— Qardaş, qaldır başını,
Axıtma göz yaşını.
Nədən qəmlisən belə?
Nə olmuş sənə, söylə?!
Tısbağa üz-gözünü
Silib, dedi sözünü:
— İşim əskikdir yaman,
Bir çarə elə, aman!
Tülkü boylandı dağa,
Dedi:—Dostum tısbağa,
Məndə də yox bir tutar,
Dağdan böyük dərdim var...

Gəl ay tısbağa qardaş!
Olaq ikimiz yoldaş,
Əkək ortaqlı darı,
Nə olsa bölək yarı.
Tülküylə ortaqlığa
Razı oldu tısbağa.



* * *

Tülkü söylədi:—Ortaq!
Darının vaxtıdır, bax.
İki gözüm, çırağım,
Əziz dostum, ortağım!
İndi sən durma, yer eş,
Dağıdıb torpağı deş.
Mən də gedim yoluxum,
Tapıb gətirim toxum.

Tısbağa çıxdı çölə,
Dırnağıyla, əliylə
Çəkib torpağı tökdü,
Otu, çayırı sökdü,
Başladı yer qazmağa.

O yandan tülkü sağa
Burularaq vaz atdı,
Gedib zəmiyə çatdı.
Gördü dağ kəndliləri
Malalayırlar yeri,
Kefi çağ, deyə-gülə
Darı səpirlər çölə.



Tülkü gəzdi dinməz, lal,
Kol dibində bir çuval
Darı tapdı, bir xurcun
Götürüb oğrun-oğrun
Çiynina aldı onu,
Birnəfəsə xurcunu
Gətirib gəldi dağa.

Baxıb gördü tısbağa
Qurdalanıb yer eşir,
Qazıb torpağı deşir.
Tülkü dedi:—Ay ortaq!
Bundan iş aşmayacaq.



Bu ağır zəhmət, əngəl...
Burax, dur arxamca gəl!..
Tülkü, tısbağa, qoşa,
Baş vurub dağa-daşa,
Keçdi yamac, yol-yoxuş,
Gəldi bir dərəyə tuş.



* * *

Kəndin idi bu dərə,
Bu gözəl, xoş mənzərə.
Uzaqlığı ucundan
Kənd bezmiş idi ondan.
Budur, bir həftə əvvəl
İki kəndli qoşub kəl
Dərəni şum etmişdi,
Sonra atıb getmişdi.

* * *

Tülkü dedi:—Ay ortaq,
Sən bizdəki baxta bax...
Götürdülər toxumu,
Səpdilər hazır şumu.

* * *

Artıq göyərdi darı,
Göründü yarpaqları.
Tülkü, tısbağa ortaq
Göy darını bir sayaq
Qorudular heyvandan,
Qurddan. quşdan, dovşandan.
Darı xeyli boy atdı,
Gəlib su vaxtı çatdı...
Quruyub yanır darı,
Rəngi olub sapsarı.

Tülkü ilə tısbağa
Düşüblər əl-ayağa...
Tülkü dedi:—Get, barı,
Ay tısbağa, yuxarı,
Su bağlayıb gətir sən,
Darını suvarım mən.
Tısbağa dedi:—Ortaq!
Belə yaxşı deyil, bax,
Sən məni çətin işə
Göndərirsən həmişə...
Mən ayaqdan ağıram,

Utancağam, fağıram;
Qoçaqsan, üzlüsən sən,
Get su aç, suvarım mən...
Tülkü bu sözə yatdı,
Gedib dəhnəyə çatdı.
Gördü ayaqda biri
Durub, suvarır yeri.
Dedi: onunki bəsdi...
Suyu darıya kəsdi.
Bir az keçmişdi bundan,
Ayağının altından
Su qurudu suçunun,
Açığı tutdu onun.



Gəldi arxın başına,
Görüb tülkünü, ona
Dedi:—A tülkü lələ,
Nə üçün etdin belə?
İzin verdi sənə kim,—
Suyumu kəsdin mənim?

Tülkü dedi:—Bu söz nə;
İzin nə lazım mənə?!.
Yoxdu başqa bir qəsdim,
Darım yanırdı, kəsdim.
Vaxtını keçirmə boş,
Su mənimdir—güc, ya xoş!..
Suçu gördü doğrudan
Qanmır bu sarsaq heyvan,
Beli çəkdi əlbəhəl,
Suyu kəsdi ən əvvəl,
Sonra alıb Basarı
Cumdu tülküyə sarı.

Tülkü qaçdı bağrı qan,
O qaçdı, qovdu oğlan.
Bu tərəfdən tısbağa
Darını suvarmağa
Başlarkən su kəsildi...
Nəsə bir iş var bildi.



Tülkü qaçdı bağrı qan,
O qaçdı, qovdu oğlan.
Bu tərəfdən tısbağa
Darını suvarmağa
Başlarkən su kəsildi...
Nəsə bir iş var bildi.

Yol aldı dağa-daşa,
Gəlib yetişdi başa.
Daş düzdü arx axarı,
Suyu darıya sarı
Açıb, getdi ayağa,
Başladı suvarmağa...

* * *

Tülkü keçdi qaya-qaş,
Gəzib dolandı dağ-daş...
Dəm verdi dabanına,
Tısbağanın yanına
Gəldi bağrı yarılmış,
Gördü yer suvarılmış.
Güldü, atıldı, düşdü,
Tısbağayla öpüşdü.

Dedi:—Dostum, mənə bax,
Su kəsilmişdi bayaq;
Yeri suvardın neçə?
O söylədi:—Gizlicə
Suyun başına vardım,
Açıb yeri suvardım.



Hardaydın söylə, bəs sən?
Tülkü dedi:—Qardaş, mən
Getdim bura su açdım,
Suçu ilə dalaşdım,
Qovdu məni o ki, var,
Eylədi dünyamı dar.

Sanki yeni doğuldum.
Güclə qaçıb qurtuldum,
Tısbağa dedi:—İnan,
Darını suvararkan



Alnımdan tərim axdı,
İnan, gözlərim axdı...
Tülkü dedi:—Mən qorxdum,
Sən yoruldunsa, dostum,
Darı sulandı yaxşı,
Kef çəkərik bu qışı.

* * *

Su içdi faraş darı,
Boy götürdü yuxarı.
Şivlənib oldu gül-gül,
Saplağı yardı sünbül.
Geyinib sünbüllər donunu sarı,
Yetişmək üzrədir tarlada darı.
Salxım-salxım olub başını əyir,
Saçları tökülüb dizinə dəyir.

Elə ki, dağlardan əsir sərin yel,
Sünbüllər süzülüb açılır tel-tel...
Zəmi sığallanıb durur arxalı,
Kəhrəba köynəkli, mərcan yaxalı
Dənələr çatlayıb yerə tökülür,—

Elə bil adamın üzünə gülür...
Tülküylə tısbağa əlində oraq!
Biçirlər darını qoşa duraraq.
Çəkilmişdi artıq dərədən bürkü;
Sıçradı yerindən tısbağa, tülkü,
Kəldilər yanaşı yerin içinə,
Başladılar yenə qızğın biçinə.
Saldılar o ki, var qışqırıq, havar...
Bəndəmlər döşəyib dərz bağladılar.
Gün dağlardan aşıb qaralanda qaş,
Biçib qurtardılar darını birbaş,
Bağlanmış dərzləri yığıb qurşaqdan,
Pəncələr qoydular zərli başaqdan.

***

Xırman döymək gərəkdi...
Tülkü durub ah çəkdi,
Dedi:—Tısbağa qardaş,
Yaxşı dost, yaxşı yoldaş!
İşimiz olub çətin.
Çox ağır əziyyətin
Qarşısında bu darı
Başa gəlibdir, barı
Qoymayaq xarab olsun,
Qurd-quş ağzında qalsın.



Əlləşib çalışaq biz,
Bir şey tapıb döyək tez.
Söylə, ortaq! Çarə nə?
Neyləyim, göstər mənə?..
Tısbağa dedi açıq:
— Dağların döşünə çıx,
Tut bir at gətir dağdan,
Döyək onunla xırman.
Təpədən, döşdən aşdı,
Tülkü dağa dırmaşdı,



Çatdı yaşıl bir düzə.
Baxdı orda üz-üzə
Otlayır beş-on xam at.
Tülkü oldu bundan şad.
Sinib tutdu ilxıdan

Xallı, kəhər bir madyan,
Əl uzatdı yalına,
Qalxıb mindi dalına.
Dedi:—Qanadlan, kəhər!..
Kəhər ildırım təhər
Bir sürətlə uçaraq,
Ceyran kimi qaçaraq
Bir anda itdi gözdən...
Keçdi dərədən, düzdən,
Aşdı yalçın qaya-daş,
Çatdı xırmana birbaş.



***

Tülküylə tısbağa o günü haman,
Dağıdıb dərzləri saldılar xırman
Tısbağa madyanı çəkib əlbəhəl,
Xamıtlayıb qoşdu küləş üstə vəl.
Bir çubuq götürüb ortada durdu,
İpindən yapışıb kəhəri sürdü.





Vəl qızılquş kimi süzdü hər yana...

Yayıldı başabaş küləş xırmana.

Tısbağa vəlini durmayıb sürür,

Ağzına toz dolur, hərdən öskürür.

Tülküsə əyləşib xorladır qəlyan,
Tısbağa tülküyə boylanır yan-yan,
Deyir:—Kömək elə mənə, yoruldum,
Günün qabağında yanıb qovruldum.
Tülkü heç e'ina etməyir ona,
Verir deyiləni qulaq ardına.
Döyülüb qurtardı darı xırmanı,
Tısbağa buraxdı çölə madyanı,
Sonra gedib tapdı bir şana, haman,
Tülkü aldı ələ bir samanyığan,
Samanı toplayıb taya vurdular,
Əsən sərin yelə tez sovurdular.
Bir yana dən çıxdı, bir yana saman,
Sapsarı darıyla qalandı xırman.

* * *

Tülkü darını duru
Görüb artdı qüruru.
Tığa, tək yeyələnmək,
İstədi o acgöz bəy.
Başladı yenə hiylə,
Dəm verdi şirin dilə,
Dedi:—Tısbağa qardaş,
Əziz dost, yaxşı yoldaş!
Deyəcək bir sözüm var,
Səndən eyləyirəm ar,
Üzümdən gəlmir deyəm.
— Söylə, nə olmuş bəyəm?!-
Dedi tısbağa ona:—

Nə ar eyləmək buna?
Açıq danış sözünü!
Yığışdırıb özünü
Tülkü dedi:—İnan, ey,
Tutma qəlbində bir şey.

Gəl çıxaq qarşı qaşa,
Ordan bura birbaşa
İkimiz qoşalaşaq,
Yamac enək, yal aşaq,
Hər kəs qan-tərə batsa,
Gəlib bura tez çatsa
Onun olsun tığ bütün...

Tısbağa bic tülkünün
Hiyləsini qanmışdı,
Alışmışdı, yanmışdı.
Bu anaş tısbağanın—
Yastıbaş tısbağanın
Bircə balası vardı,
Onu sevər, oxşardı.
Çəkmişdi çox əziyyət,
İndi o şaddı əlbət,
Artıq yaşa dolmuşdu,
Yekə bala olmuşdu.



Mən də burda dayanım!..
Top bala addım-addım
Getdi tülküyə sarı.
Tülkü qalxdı yuxarı,
Dırmaşıb çıxdı qaşa,
Bala da gəldi; qoşa
Durub onlar tərpəndi.
Tülkü enişi endi:
«Əlim-əlimə,
Ətək belimə,
Züy dilimə,



Züy qara ilan,
Şuy qara ilan!..»—
Deyərək qaçdı tülkü,
Bələnlər aşdı tülkü,
Keçdi yal, keçdi aşrım,
Dərə, təpə, uçurum...
Gəldi xırmana çatdı,
Tükənməz dərdə batdı,
Kədər çökdü üzünə,
İnanmadı gözünə...
Gördü: tısbağa ondan
Qabaq gəlmiş, xırmandan
Ölçür çanaqla darı,
Tülkü oldu sapsarı,
Baxdı xeyli xırmana,
Qaldı lap yana-yana...

